# NATIONAL LANGUAGE ISSUES IN THE ARMY OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC

**Mehman Suleymanov**[1]
**Elnara Hajieva**[2]

**UDC:** 94(479.24)"1918/1920":355.3:81'272
**LBC:** 63.3(5Aze)532:68.3(5Aze):81.631.1
**HoS:** 159
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.89-97

**Keywords:**

Independence, National army, National language, Azerbaijani turkish, National officers, National language policy

**Subject area:**

Humanitarian Sciences

**Research field:**

Military History and Linguistics

## ABSTRACT

To protect the territorial integrity and independence of the Azerbaijan Democratic Republic, which declared its independence on May 28, 1918, one of the important tasks facing the government and people of Azerbaijan was the organization of a national army. The organization of such army began immediately after the declaration of independence. It was a rather complicated process to create an army. However, one of the important reasons for successfully overcoming these difficulties was the organization of the army on national values. In this sense, the transformation of Azerbaijani turkish into an official language within the army and its implementation was of great importance. Because the vast majority of the soldiers of this army were illiterate young people, and it would not be easy to mobilize those young people to perform very complex and responsible tasks by speaking a different language. Only by communicating in the soldier's native language, it was possible to train him as a loyal defender of the Motherland. The application of Azerbaijani turkish in the national army was also a matter of political importance. Because by the decision of the government of Azerbaijan, Azerbaijani turkish was declared the official language of the Azerbaijan Democratic Republic, and the use of Azerbaijani turkish in the army of the Republic was a national duty. That task was solved very successfully as a result of the policy followed by the Ministry of Defense of the Republic. The present article is devoted to the study of the application of Azerbaijani turkish in the Army of the Azerbaijan Democratic Republic.

[1] Doctor of Historical Sciences, Professor,
National Defense University; Baku, Azerbaijan
E-mail: smehman04@gmail.com
https://orcid.org/0000-0002-7139-9624
[2] Associate Professor,
National Defense University; Baku, Azerbaijan
E-mail: elnarehaciyeva42@gmail.com
https://orcid.org/0009-0008-6757-1170

**To cite this article:** Suleymanov, M., & Hajiyeva, E. [2026]. National Language Issues in the Army of the Azerbaijan Democratic Republic. *History of Science journal*, *7*(2), pp.89-97.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.89-97

***Article history:***
*Received: 16 February 2026*
*Revised: 17 March 2026*
*Accepted: 1 June 2026*
*Published: 15 June 2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# AZƏRBAYCAN XALQ CÜHMURİYYƏTİ ORDUSUNDA MİLLİ DİL MƏSƏLƏLƏRİ

**Mehman Süleymanov**[1]
**Elnarə Hacıyeva**[2]

**UOT:** 94(479.24)"1918/1920":355.3:81'272
**KBT:** 63.3(5Aze)532:68.3(5Aze):81.631.1
**HoS:** 159
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.89-97

**Açar sözlər:**

Müstəqillik,
Milli ordu,
Milli dil,
Azərbaycan türkcəsi,
Milli zabitlər,
Milli dil siyasəti

**Sahə:**

Humanitar elmlər

**Tədqiqat sahəsi:**

Hərbi Tarix və Dilçilik

## ANNOTASİYA

1918-ci il may ayının 28-də öz müstəqilliyini elan etmiş Azərbaycan Xalq Cümhuriyyətinin ərazi bütövlüyünün və müstəqilliyinin qorunması üçün Azərbaycan hökumətinin və xalqının qarşısında dayanan mühüm vəzifələrdən biri milli tərkibli ordunun təşkil edilməsi idi. Belə bir ordunun təşkilinə müstəqilliyin elan edilməsindən dərhal sonra başlandı və qısa müddət ərzində Azərbaycanın müstəqilliyinə və suverenliyinə sədaqətli olan bir ordu formalaşdırıldı. Təxminın bir əsrə yaxın Rusiya imperiyasının işğalı altında olan bir xalqın dövrün tələblərinə cavab verəcək bir ordusunun yaradılması kifayət qədər mürəkkəb bir proses idi. Mövcud çətinliklərin uğurla aradan qaldırılmasının mühüm səbəblərindən biri Cümhuriyyət ordusunun milli dəyərlər üzərində təşkilatlandırılması idi. Bu mənada Azərbaycan türkcəsinin ordu daxilində rəsmi dilə çevrilməsi və onun tətbiqinə nail olunması mühüm əhəmiyyət kəsb edirdi. Çünki bu ordunun sıravi heyətinin böyük əksəriyyəti savadsız gənclər idi və qeyri bir dildə danışmaqla həmin gəncləri çox mürəkkəb və məsuliyyətli vəzifələrin icrasına səfərbər etmək heç də asan olmazdı. Yalnız əsgərin doğma ana dilində ünsiyyət saxlamaqla onu sədaqətli bir Vətən müdafiəçisi kimi yetişdirmək mümkün idi. Azərbaycan türkcəsinin milli orduda tətbiq edilməsi həm də siyasi əhəmiyyət kəsb edən bir məsələ idi. Çünki Azərbaycan hökumətinin qərarı ilə Azərbaycan türkcəsi Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi dili elan edilmişdi və milli mənsbiyyətinə görə Cümhuriyyət Ordusunda Azərbaycan türkcəsinin tətbiq edilməsi ümummilli bir vəzifə idi. Həmin vəzifə Cümhuriyyətin Hərbi Nazirliyinin izlədiyi siyasət nəticəsində çox uğurla həll edildi. Hazırkı məqalə Azərbaycan Xalq Cümhuriyyəti Ordusunda Azərbaycan türkcəsinin tətbiqi məsələlərinin tədqiqinə həsr edilmişdir.

[1] Tarix elmləri doktoru, Professor,
Milli Müdafiə Universiteti; Bakı, Azərbaycan
E-mail: smehman04@gmail.com
https://orcid.org/0000-0002-7139-9624
[2] Dosent,
Milli Müdafiə Universiteti; Bakı, Azərbaycan
E-mail: elnarehaciyeva42@gmail.com
https://orcid.org/0009-0008-6757-1170
**Məqaləyə istinad:** Süleymanov, M., & Hacıyeva, E. [2026]. Azərbaycan Xalq Cühmuriyyəti Ordusunda Milli Dil Məsələləri. *History of Science jurnalı*, *7*(2), səh.89-97.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.89-97

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 16.02.2026*
*Yenidən baxılıb: 17.03.2026*
*Təsdiqlənib: 01.06.2026*
*Dərc olunub: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# ВОПРОСЫ НАЦИОНАЛЬНОГО ЯЗЫКА В АРМИИ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ

**Мехман Сулейманов**[1]
**Эльнара Гаджиева**[2]

**УДК:** 94(479.24)“1918/1920”:355.3:81’272
**ББК:** 63.3(5Азе)532:68.3(5Азе):81.631.1
**HoS:** 159
**doi**: 10.33864/2790-0037.2026.v7.i2.89-97

**Ключевые слова:**

Независимость, Национальная армия, Национальный язык, Национальные офицеры, Национальная языковая политика

**Область исследования:**

Гуманитарные науки

**Научная область:**

Военная история и лингвистика

## АННОТАЦИЯ

Для защиты территориальной целостности и независимости Азербайджанской Демократической Республики, провозгласившей свою независимость 28 мая 1918 года, одной из важных задач, стоящих перед правительством и народом Азербайджана, была организация национальной армии. Организация такой армии началась сразу после провозглашения независимости. Это был довольно сложный процесс создания армии. Однако одной из важных причин успешного преодоления этих трудностей была организация армии на национальных ценностях. В этом смысле большое значение имело превращение Азербайджанского языка в официальный язык в армии и его реализация. Потому что подавляющее большинство солдат этой армии составляли неграмотные молодые люди, и мобилизовать этих молодых людей на выполнение очень сложных и ответственных задач, говоря на другом языке, было бы непросто. Только общаясь на родном языке солдата, можно было воспитать из него верного защитника Родины. Применение Азербайджанского языка в национальной армии также имело политическое значение. Потому что решением правительства Азербайджана Азербайджанский язык был объявлен официальным языком Азербайджанской Демократической Республики, а использование Азербайджанского языка в армии республики было национальным долгом. Эта задача была решена весьма успешно в результате проводимой Министерством обороны республики политики. Настоящая статья посвящена изучению применения Азербайджанского языка в Армии Азербайджанской Демократической Республики.

[1] Доктор исторических наук, Профессор,
Национальный университет обороны; Баку, Азербайджан
E-mail: smehman04@gmail.com
https://orcid.org/0000-0002-7139-9624
[2] Доцент,
Национальный университет обороны; Баку, Азербайджан
E-mail: elnarehaciyeva42@gmail.com
https://orcid.org/0009-0008-6757-1170
**Цитировать статью:** Сулейманов, М., & Гаджиева, Э. [2026]. Вопросы национального языка в армии Азербайджанской Демократической Республики. *Журнал History of Science*, *7*(2), с.89-97.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.89-97

***История статьи:***
*Поступила: 16.02.2026*
*Переработана: 17.03.2026*
*Принята: 01.06.2026*
*Опубликована: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun əsasını 1917-i ilin dekabr ayında təşkilinə qərar verilmiş Müslman korpusu təşkil edirdi. Bu korpusun təşkili çar Rusiyası ordusunun qərargahı Tiflisdə olan 6-cı ordu korpusunun bazasında aparılmalı idi. Bu korpus 5-ci və 7-ci piyada diviziyalarından və digər xidmət hissələrindən ibarət idi. Qəbul edilmiş qərara əsasən bu diviziyaların sıravi heyəti müsəlmanlardan (Azərbaycan türkərindən) komplektləşdirilməli idi [Müsəlman korpusu, 2005, s.231]. Korpusun əvvəlki zabit heyəti isə saxlanıla bilərdi. Bu zabit heyəti əsasən qeyri-azərbaycanlı zabitlər idilər. Onları azərbaycanlı zabitlərlə əvəzləmək imkanı yox idi. Çünki azərbaycanlılar arasında bir ordu korpusunun zabit heyətini bütün səviyyələrdə əvəz edəcək qədər zabit yox idi. Ona görə Azərbaycan hökuməti məcburiyyət qarşısında qalaraq Cümhuriyyət Ordusunda qeyri-azərbaycanlı zabitlərin xidmətini davam etdirməsinə razılıq verdi. Həmin zabitlərin əksəriyyəti isə Azərbaycan türkcəsini bilmirdi və ona görə də onların sıravi heyətlə ünsiyyətinin qurulmasında çətinliklər ortaya çıxırdı.

1918-ci il may ayının sonlarında Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsindən sonra Müsəlman korpusu milli hökumətin səlahiyyətləri çərçivəsinə gətirildı və onun hüquqi statusu dəyişdiriləərək 1918-ci il iyun ayının 26-da Əlahiddə Azərbaycan Korpusu adlandırıldı [2, s.18].

## 2.Müstəqilliyin elan edilməsindən sonra ordu quruculuğu

Müstəqilliyin elan edilməsindn dərhal sonra Azərbaycanda həm də Qafqaz İslam Ordusu təşkil edildi. Azərbaycanın ərazi bütövlüyünün və müstəqilliyinin müdafiə-sində tarixi xidmətləri olan bu Ordu Azərbaycanın milli hərbi hissələrinin və Azərbaycan hökumətinin rəsmi müraciəti əsasında Cümhuriyyətin köməyinə gəlmiş Osmanlı Türkiyəsinin nizami hərbi hissəslərinin bazasında təşkil edilmişdi [Дарабади, 2013, с.75].

Osmanlı Türkiyəsi hərbi hissəslərinin Azərbaycanın milli hərbi hissələri ilə vahid hərbi struktur daxilində vəzifə icra etmələri rus dilində təmasların çətinliyini bir daha ortaya çıxdı. Çünki Cümhuriyyət ordusu daxilində sayı heç də az olmayan rus zabitləri ilə Osmanlı zabitlərinin ünsiyyətinin qurulması üçün dil çətinlikləri özünü aydın şəkildə göstərirdi. Görünür elə buna görədir ki, Qafqaz İslam Ordusunun komandanı Nuru paşanın 1918-ci il avqust ayının 13-də imzaladığı əmrlə Əlahiddə Azərbaycan Korpusunun yenidən təşkil edilməsinə başlandı [Ersay, 2023, s.118].

Bu əmrin verilməsinin səbəblərindən biri də Cümhuriyyət ordusu daxilində milli dilin daha işlək vəziyyətə gətirilməsi ilə bağlı idi. Çünki əmrə əsasən Cümhuriyyət ordusunda xidmət edən bütün qeyri-azərbaycanlı zabitlər xidmətdən kənarlaşdırıldı (müsəlman olan qeyri-azərbaycanlı zabitlər istisna olmaqla). Bu da özlüyündə Azərbaycan türkcəsinin ordu daxilində daha geniş şəkildə işlənməsinə zəmin yaratdı.

Birinci Dünya Müharibəsinin nəticələrinə görə, Osmanlı Türkiyəsi məğlub duruma düşdü və Qafqaz İslam Ordusu ləğv edildi [5, s.100-101]. Osmanlı hərbi qüvvələrinin Azərbaycanı tərək etməsindən sonra ölkə daxilində milli ordunun təşkili bütünlüklə Azərbaycan hökumətinin səlahiyyətinə verildi. Bu ordunun təşkilinə rəhbərlik etmək üçün 1918-ci il noyabr ayının 1-də Hərbi Nazirlik yaradıldı və tam artilleriya generalı Səməd bəy Mehmandarov Hərbi Nazirliyin rəhbərliyinə gətirildi [6, s.179].

Çar Rusiyası ordusunda öz xidməti ilə kifayət qədər tanınmış general-leytenant Əliağa Şıxlinski isə hərbi nazirin müavini təyin edildi və Azərbaycanda ordu quruculuğu bu iki generalın rəhbərliyi altında aparıldı. Onların ordunun rəhbərliyinə təyin edilmələri Cümhuriyyət ordusunun formalaşdırılması sahəsində Azərbaycan hökumətinin qəbul etdiyi tarixi qərar oldu. Çünki bu generalların zəngin təcrübəsi və təşkilatçılıq qabiliyyəti ordunun sürətlə təşkilatlanmasına müsbət təsir göstərdi. Adları çəkilən generalların ordu quruculuğu sahəsində tarixi xidmətlərindən biri bu oldu ki, onlar ordu və dövlət münasibətlərinin

mahiyyətini dəqiqliklə müəyyənləşdirdilər, ordunun bütün fəaliyyətinin dövlət siyasətinə, dövlət maraqlarının qorunmasına bağlılığını təmin etdilər, ordunu siyasi təsirlərdən və siyasi parçalanmalardan qorudular. Cümhuriyyət hökumətinin bir neçə kabinəsi dəyişsə də Hərbi Nazirliyin rəhbərliyi dəyişilməz qaldı. Yeni təşkil olunan kabinələrin hamısının rəhbərliyi Hərbi Nazirliyə rəhbərlikdə S.Mehmandarovla Ə.Şıxlinskiyə alternativ görmədilər.

**3.Cümhuriyyət ordusunda milli dil məsələləri**

Qısa müddət ərzində Azərbaycanın milli hərbi qüvvələrinin formalaşdırılması üçün Hərbi Nazirlik və respublika hökuməti son dərəcə mürəkkəb problemlərin həlli ilə üzləşməli oldu. Onlardan biri də milli zabitlərin çatışmazlığı idi. Xüsusilə, aşağı səviyyələrdə, şəxsi heyətlə işləyən kontingent arasında milli zabitlərin sayı son dərəcə az idi. Belə bir şəraitdə Azərbaycan hökuməti yenidən ölkənin müstəqilliyinə sədaqəti olan qeyri-azərbaycanlı zabitlərin xidmətə qəbul edilməsinə icazə verdi. Nəticədə ordu daxilində, xüsusilə yuxarı səviyyəli vəzifələrdə qeyri-azərbaycanlı zabitlərin sayı xeyli artı

Bununla belə, Cümhuriyyət Ordusunda milli dilin tətbiqi Hərbi Nazirliyin rəhbərliyinin fəaliyyətinin mühüm istiqamətlərindən birini təşkil edirdi. Hərbi nazir təyin ediləndən sonra Səməd bəy Mehmandarov Azərbaycan xalqına müraciət etdi. Bu müraciət rus dilində olduğu kimi, həm də Azərbaycan türkcəsində hazırlandı. Bu müraciət vərəqə şəklində kütləvi şəkildə nəşr edilərək əhali arasında yayıldı. Müraciət əsasən hərbi xidmətə çağırış məsələsinə həsr edilsə də, orada Azərbaycanda ordu quruculuğunun gedişi və onun ümummilli məsələ olması haqqında da məlumat verilmişdi. Həmin müraciət belə tamamlanırdı: "Əziz olan Vətənim tərəfindən Vətən əhlinə müraciət edib deyirəm ki, Vətən hissi, millət hissi olan cavanlarımız hansı ki, əsgərliyə düşür, borcludur ki, məhəlli əxzi-əsgər idarələrinə gəlib yazılsınlar və bununla milli qoşunumuzun təşkil olunması barəsində bizə yardım etsinlər. Hər kəs öz vəzifəsini unudub gəlmək istəmirsə, camaatın töhməti altında qaldığından divani-hərbiyyəyə veriləcəkdirlər. Mənim bu dəvətnaməm hər bir yerdə yapışdırılsın. Savadlı adamlar borcludur ki, savadsızlara oxuyub qandırsınlar" [7, s.67].

Cümhuriyyət Ordusunda Azərbaycan türkcəsinin tətbiqinin təşviqləndiriıməsi üçün bütün zabitlərin paqonlarında "Azərbaycan" sözü yazılmışdı [5, s.101]. Bu paqon digər hüquq-mühafizə orqanlarının paqonlarından bu yazıya görə fərqlənirdi və bütün zabitlər yalnız üzərində "Azərbaycan" yazılmış paqonları gəzdirə bilərdilər.

Orduya yeni çağırılan əsgərlərin tərbiyələndirilməsində milliliyin artırılması xidmət nizamnamələrinin hazırlanmasında da öz əksini tapmışdı. Bu nizamnamələr dünya təcrübəsi üzərində hazırlansa da, Hərbi Nazirliyin rəhbərliyinin tələbi ilə yerli milli dəyərlər də kənara qoyulmamalı idi. Nizamnamələrin hazırlanması müəyyən bir vaxtı tələb edirdi. S. Mehmandarovun 27 dekabr 1918-ci il tarixli əmri ilə nizamnamələr hazırlanana qədər xidmətdaxili münasibətlərdə milli elementlərin tətbiq edilməsinə qərar verildi. Həmin əmrə görə Azərbaycan Ordusunda olan bütün zabitlər milli mənsubiyyətindən asılı olmayaraq əsgərlərlə sırada və ya sıradan kənarda salamlaşarkən "Salam əleyküm" deməli idilər. Əsgərlərin də cavab belə olmalı idi: "Əleyküm salam". Yaxşı xidmətinə görə əsgərlər təriflənərkən ona "mərhəba" deyilməli idi. Bu sözün qarşısında əsgər də "çox sağ ol" cavabı verməli idi [8, s.72].

Azərbaycan türkcəsinin Cümhuriyyət Ordusunda tətbiqinin sürətləndirilməsi ilə bağlı hərbi nazir S. Mehmandarovun imzaladığı əmrlərindən biri qeyri-azərbaycanlı zabitlərin Azərbaycan türkcəsini öyrənməyə məcbur edilmələri idi. Aydın idi ki, qeyri-azərbaycanlı zabitlər qısa müddət ərzində Azərbaycan türkcəsini dərindən öyrənə bilməzdilər. Ona görə S. Mehmandarov Cümhuriyyət Ordusunda xidmətə cəlb edilən bütün qeyri-azərbaycanlı zabitlərdən tələb edirdi ki, bir ay ərzində heç olmasa komanda sözlərinin və əmrlərin Azərbaycan dilində olan qarşılıqalrını öyrənsinlər. Bu tələbi yerinə yetirməyən və komanda

sözlərinin Azərbaycan türkcəsindəki qarşılığını öyrənməyən zabitlər Cümhuriyyət Orudunda xidmətdən kənarlaşdırılmalı idilər [9, s.63].

1919-cu il may ayının 21-də imzaladığı əmri ilə S. Mehmandarov yenidən qeyri-azərbaycanlı zabitlərin Azərbaycan türkcəsini öyrənməsinin vacibliyinə toxundu. O qeyd etdi ki, bir sıra zabitlərin xidmətə qəbul edilməsindən beş ay keçməsinə baxmayaraq hələ də Azərbaycan türkcəsini öyrənə bilməmişlər. Bu zabitlər ordunun təşkili üçün gözlənilən faydanı verə bilmədikləri üçün xidmətdən azad edilmişdilər. Sonra da əmrdə belə zabitlərin siyahısı verilmişdi. Həmin siyahıda 10 nəfər qeyri-azərbaycanlı zabitin adı var idi [8, s.480-481].

Hərbi nazir S.Mehmandarov 1919-cu il 25 iyun tarixli və həmin ilin 8 oktyabr tarixli əmrində dil məsələsinə bir daha toxundu. 25 iyun tarixli əmrində S. Mehmandarov tələb edirdi ki, Azərbaycan türkcəsinin öyrənilməsi məsələsi xidmətə qəbul edilən gürcü zabitlırinə də aiddir. Onlara da milli dilin öyrənilməsinə bir ay vaxt verilirdi. Bu müddət ərzində göstərilən tələbə cavab verməyən gürcü zabitləri Cümhuriyyət Ordusunda xidmətdən azad edilməli idi [9, s.72].

8 oktyabr 1919-cu il tarixli əmrində isə S. Mehmandarov tələb edirdi ki, Azərbaycan türkcəsini bilməyən zabitlər bölük komandiri vəzifəsinə təyin edilə bilməzlər. Yalnız Azərbaycan türkcəsində danışa bilən  zabitlər bu vəzifəyə təyin edilə bilərdilər [9, s.316].

Rəsmi sənədləşmələrdə də Azərbaycan türkcəsinin tətbiqi Hərbi Nazirliyin rəhbərliyinin diqqət mərkəzində idi. Cümhuriyyət Ordusunun yenicə təşkilatlandırılmasına başlananda bütün hərbi hissəslərin, hərbi strukturların möhürləri və künc ştampları rus dilində hazırlanmışdı. Hərbi nazir S. Mehmandarov bunu yol verilməz sayırdı. O, bütün strukturların rəhbərlərindən tələb edirdi ki, möhürlər və künc ştampları hazırlanarkən respublikanın rəsmi dilinin türk dili olması nəzərə alınsın. Ona görə də əmr edilmişdi ki, möhürlrdə və künc ştamplarında hərbi strukturların adları əvvəlcə Azərbaycan türkcəsində və ondan sonra rus dilində yazılsın [Süleymanov, 2014, s.383].

Qeyri-azərbaycanlı zabitlərə, habelə savadsız əsgərlərə Azərbaycan türkcəsinin öyrədilməsi üçün Hərbi Nazirliyin rəhbərliyinin təşəbbüsü ilə müxtəlif kurslar təşkil edilmişdi. Həmin kurslardan biri ordudan kənar kurs idi. Belə ki, Maarif Nazirliyinin 20 avqust 1919-cu il tarixli qərarı ilə Bakıdakı Realnı məktəbin nəzdində dil kursları açılmışdı. Həmin kurslar pulsuz olaraq həftədə üç gün axşamlar fəaliyyət göstərirdi. Hərbi Nazirliyin rəsmi müraciətindən sonra həmin kurslarda Cümhuriyyət zabitlərinin də dil öyrənməsinə yer ayrılmışdı [Süleymanov, 2014, s.383].

1919-cu il sentyabrın 21-də Cümhuriyyət Ordusunun Ümumi Qərargahı tərəfindən də ordu daxilində dil kurslarının yaradılması haqqında sərəncam verildi. Həmin sərəncamda deyilirdi ki, Azərbaycan türkcəsinin dövlət dili elan edilməsi haqqında Azərbaycan hökumətinin 27 iyun 1918-ci il tarixli qərarının həyata keçirilməsi ilə bağlı hərbi qulluqçular üçün Ümumi Qərargahın nəzdində Azərbaycan dili kursları təşkil edilmişdir. Hərbi qulluqçulardan tələb olunurdu ki, bu kurslara yazılsınlar. Azərbaycan dili kursları həm zabitlər üçün, həm də savadsız əsgərlər üçün nəzərdə tutulmuşdu. Kurslar iki semestr davam etmli idi. Birinci semestr sentyabr ayının 26-dan dekabr ayının 20-nə qədər, ikinci semestr isə yanvar ayını 2-dən aprel ayının 1-nə qədər uzanmalı idi. Dil kursları həftədə 3 dəfə olmaqla, hər dəfə 2 saat planlaşdırılmışdı. Bu kurslar Hərbi Nazirliyin qərargahında təşkil edilməli idi. Nəzərdə tutulmuşdu ki, hərbi hissəslərdə də belə kurslar təşkil edilsin [11, s.383].

Ordu daxilində milli dilin öyrədilməsinə diqqət 1920-ci ildə daha da gücləndirildi. Həmin il mart ayının 3-də hərbi nazir S. Mehmandarov 129 nömrəli xüsusi bir əmr imzaladı. Bu əmr doğma dildə əsgərlər arasında savadsızlığın aradan qaldırılamsına həsr olunmuşdu. Əmrdə deyilirdi ki, doğma dildə savadın yayılması, hərbi hissələrin təlim komandalarının

belə savadlı əsgərlərlə komplektləşdirilməsi məqsədilə piyada və süvarı alaylarda tabor məktəbləri yaradılsın. Bu əmrə əsasən əsgərlərə doğma dildə savad öyrədilməsi kütləviləşdirilməli idi. Əmrə əsasən tələb olunurdu ki, tabor məktəblərinə savad öyrənmək qabiliyyəti olan savadsızlar və azsavadlılar göndərilsin. Hər bir bölük bu məktəbə 15 nəfər göndərməli idi. Bu məktəblərdə tədris müddəti 4 ay davam etməli idi. Tabor məktəblərindən başqa alay məktəbləri də təşkil olunmalı idi. Tabor məktəbini bitirən əsgərlər arasından ən yaxşı 20-25 nəfər seçilərək alay məktəbinə göndərilməli idi. Alay məktəbi daha yüksək səviyyə sayılırdı. Alay məktəblərində də təhsil müddəti 4 ay olmalı idi. Bu məktəblərdə əsgərlər savadlarını təkmilləşdirməklə bərabər, həm də Azərbaycan xalqını tarixini öyrənməli idilər. Alay məktəblərində də hər dəfə iki saat dərs keçirilməli idi [11, s.222-223].

Milli dilin ordu daxilində kütləviləşdirilməsi baxımından hərbi şərqilərin oxunması da xüsusi əhəmiyyət daşıyırdı. Bu şərqilər həm milli dilin kütləviləşdirilməsi, həm də şəxsi heyətin mənəvi-ideolji baxımdan formalaşdırılması istiqamətində görülən dəyərli işlərdən biri idi. Şərqilər kollektiv şəkildə ifa edildiyindən şəxsi heyətin mənəvi iradəsi kimi özünü göstərməkdə idi.

Hərbi şərqilər bütün hərbi hissələrin xidmət rejiminə daxil edilmişdi. Onlar səhər-səhər, ya da əsgərlərin kollektiv təmrinləri zamanı icra edilirdi. Bu şərqilərin mətnləri xalq dilində yazılamqla həm də xalqln ruhunu əks etdirirdi. Hərbi Nazirliyin rəhbərliyi tərəfindən bu şərqilərin oxunması məcburi element kimi xidmət rejiminə daxil edilmişdi. Azərbaycan Cümhuriyyətinin müstəqilliyi, bu müstəqilliyə sədaqət hərbi şərqilərin böyük hissəsinin əsasə məzmunun əks etdirirdi. Məsələn, hazırda Dövlət Arxivində ayrıca bir qovluqda mühafizə olunan həmin şərqilərin birində Azərbaycan xalqını müstəqilliyi məsələsi öz ifadəsini belə tapmışdı:

- Bayrağımız qalxdı göylərə sarı
- Təzədən çalındı istiqlal marşı
- Çoxdan sönən atəşimiz
- Cəngdən parladı, yenə azadıq biz
- Yaşasın milləti-Azərbaycan
- Çox fəxr eylə Azərbaycan
- İstiqlal aldıq [Süleymanov, 2018, s.417].

Hərbi şərqilərdə Azərbaycan əsgərini və zabitini düşündürən və maraqlandıran ən müxtəlif milli məsələlərə toxunmuşdu. Onların arasında Azərbaycanın hərb tarixində xüsusi yeri olan hərbi nazir Səməd bəy Mehmandarova da həsr edilmiş bir neçə şərqi vardır. Həmin şərqilərdən birində deyilirdi:

- Aslan ürəkli Səməd paşamız
- Şanlı komandan, sənsən babamız
- Sənə qurban iolsun ata-anamız
- Al bir düşmənlərdən türkün qanını [Süleymanov, 2018, s.419].

Hərbi hissə bölmələrinin şəhər küçələri ilə addımlaması zamanı da Azərbaycan türkcəsində olan hərbi şərqilər oxunardı. Şəhər sakinləri bu səhnəni, milli dildə insana ruh gətirən hərbi şərqilərə böyük qulaq asırdılar. 1919-cu ildə Bakı şəhərindən olmuş bir fransalı jurnalist şahidi olduqlarını belə ifadə edirdi: “Rus çarı zamanı azərbaycanlılar hərbi xidmətə çağırılmırdılar. Buna görə də onlar atıcılıq təmrinlərini yerinə yetirməyi çox sevirlər. Azərbaycan zabitləri xalq silahdan istifadə etməyi öyrədirlər. Zərurət yarananda bütün xalq öz ölkəsini qorumağa hazır olacaqdır. Axşam, gündüz əməyindən sonra hər yerdə milli mahnıların necə oxunduğunu eşitmək olar: “Marş irəli, irəli, Azərbaycan əsgəri” [Süleymanov, 2018, s.414].

Ordu daxilində Azərbaycan türkcəsinin tətbiq faizinin yüksəldilməsi və kütləviləşdirilməsi üçün diqqət yetirilən mühüm məsələlərdən biri də milli zabit kadrları

hazırlığı məsələsi idi. Bu zabit kadrları ilk növbədə taktiki səviyyəli vəzifələrə təyin edilməsi nəzərdə tutulmuşdu ki, əsgər heyəti ilə təmasda da əsasən həmin heyət olurdu. Əsgər heyətinin hərbi hazırlığı və təlimləri də bu zabitlər tərəfindən həyata keçirilirdi. Ona görə də Hərbi Nazirliyin rəhbərliyi şəxsi heyətlə bağlı olan vəzifələrə məhz azərbaycanlı zabitlərin və ya Azərbaycan dilini bilən zabitlərin təyin olunmasını tələb edirdi. Hərbi məktəbləri bitirən gənc zabitlərin orduya axışması ilə ordu daxilində Azərbaycan türkcəsinin kütləviləşməsi daha geniş miqyas aldı. Cümhuriyyətin möcudluğu dövründə Azərbaycan hərbi məktəblərini 537 gənc bitirərək ordu daxilində xidmətə başlamışdı [Şahbazov, 2020, s.768-784].

**4.Nəticə**

Bir sözlə, Hərbi Nazirliyin rəhbərliyinin Cümhuriyyət Ordusu daxilində Azərbaycan türkcəsinin tətbiqi ilə bağlı konkret siyasətə malik idilər. Bu siyasət inkişafda olan bir prosesi nəzərdə tuturdu. Vaxt keçdikcə bu istiqamətdə əldə edilən nəticələr də artmaqda idi. Lakin 1920-ci il aprelin 28-də Azərbaycanın bolşevik işğalına məruz qalmasından sonra ordu daxilində Azərbaycan türkcəsinin tətbiqi də dövlət siyasətindən çıxarıldı. Doğrudur, sovet hakimiyyətinin ilk illərində Azərbaycan türkcəsi Azərbaycanda formalaşdırılan ordu daxilində qalmaqda idi. Lakin rus dili rəsmi dil kimi qəbul edilmişdi və vaxt ötdükcə bu dil ordu daxilində hakim rəsmi dilə çevrildi.

**5.REFERENCES**

1. *Muslim corpus*. (2005). In *Encyclopedia of the Azerbaijan Democratic Republic* (2 volumes, Vol. 2). Baku: Lider Publishing House. (in Azerbaijani)
2. *Azerbaijan Democratic Republic (1918–1920): Army*. (1998). Baku: Azerbaijan Publishing House. (in Russian)
3. Darabadi, P. (2013). *Military-political history of Azerbaijan (1917–1920)*. Baku: Caucasus Publishing House. (in Russian)
4. Ersay, B. (2023). *From the glorious history of the Caucasian Islamic Army*. Baku: Military Publishing House. (in Azerbaijani)
5. *Caucasian Islamic Army*. (2005). In *Encyclopedia of the Azerbaijan Democratic Republic* (2 volumes, Vol. 2, pp.101–103). Baku: Lider Publishing House. (in Azerbaijani)
6. *Mehmandarov*. (2005). In *Encyclopedia of the Azerbaijan Democratic Republic* (2 volumes, Vol. 2, pp.178–181). Baku: Lider Publishing House. (in Azerbaijani)
7. *Elamiyye*. (1993). *Military Knowledge*, (2). (in Azerbaijani)
8. Shahbazov, A. (Comp.). (2018a). *Collection of orders of the Military Department of the Azerbaijan Democratic Republic* (Part I). Baku. (in Russian)
9. Shahbazov, A. (Comp.). (2018b). *Collection of orders of the Military Department of the Azerbaijan Democratic Republic* (Part II). Baku. (in Russian)
10. Suleymanov, M. (2014). *Military history of the Azerbaijan Democratic Republic* (2 volumes, Vol. 2). Tehran. (in Azerbaijani)
11. Shahbazov, A. (Comp.). (2018c). *Collection of orders of the Military Department of the Azerbaijan Democratic Republic* (Part III). Baku. (in Russian)
12. Suleymanov, M. S. (2018). *History of the Azerbaijan Army*. Baku. (in Azerbaijani)
13. Shahbazov, A. (2020). *Officers and officials of the army of the Azerbaijan Democratic Republic*. Baku. (in Azerbaijani)

**ƏDƏBİYYAT**

1. *Müsəlman korpusu*. (2005). In *Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası* (2 cilddə, II cild). Bakı: Lider.

2. *Азербайджанская Демократическая Республика (1918–1920): Армия*. (1998). Баку: Издательство Азербайджан.
3. Дарабади, П. (2013). *Военно-политическая история Азербайджана (1917–1920 годы)*. Баку: изд. Дом «Кавказ».
4. Ersay, B. (2023). *Qafqaz İslam Orduusnun şərəfli tarixindən*. Bakı: Hərbi nəşriyyat.
5. *Qafqaz İslam Ordusu*. (2005). In *Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası* (2 cilddə, II cild, s.101–103). Bakı: Lider.
6. *Mehmandarov*. (2005). In *Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası* (2 cilddə, II cild, s.178–181). Bakı: Lider.
7. *Elamiyyə*. (1993). *Hərbi Bilik*, (2).
8. Шахбазов, А. (Сост.). (2018a). *Сборник приказов по Военному Ведомству Азербайджанской Демократической Республики* (Часть I). Баку.
9. Шахбазов, А. (Сост.). (2018b). *Сборник приказов по Военному Ведомству Азербайджанской Демократической Республики* (Часть II). Баку.
10. Süleymanov, M. (2014). *Azərbaycan Xalq Cümhuriyyətinin hərb tarixi* (2 cilddə, II cild). Tehran.
11. Шахбазов, А. (Сост.). (2018c). *Сборник приказов по Военному Ведомству Азербайджанской Демократической Республики* (Часть III). Баку.
12. Süleymanov, M. S. (2018). *Azərbaycan Ordusunun tarixi*. Bakı.
13. Şahbazov, A. (2020). *Azərbaycan Xalq Cümhuriyyəti ordusunun zabit və məmurları*. Bakı.